# İkinci Qarabağ müharibəsində şəhid olmuş qəbələlilər

| S/№ | Soyadı, adı, atasının adı | Təvəllüdü | Rütbəsi | Yaşadığı ünvan | Ailə vəziyyəti |
|---|---|---|---|---|---|
| 1. | Həşimov Polad İsrayıl oğlu | 02,01.1975 | General-mayor | Sumqayıt şəhəri | Evli |
| 2. | Abdurəhmanov Əfqan Ağasəf oğlu | 25.06.1976 | Polkovnik-leytenant | Əmirvan kəndi | Evli |
| 3. | Abışov Bəhruz Zabit oğlu | 18.06.983 | Polkovnik-leytenant | Bakı şəhəri | Evli |
| 4. | İsmayılov Natiq Əjdər oğlu | 05.03.1980 | Mayor | Bunud kəndi | Evli |
| 5. | Ənvərli Aqşin Faiq oğlu | 10.10.1994 | Baş leytenant | Qəbələ şəhəri | Subay |
| 6. | Babayev İqbal Zəki oğlu | 10.09.1995 | Leytenant | Bakı şəhəri | Subay |
| 7. | Baxışov Hakim Səyyar oğlu | 13.12.2000 | Gizir | Topbağ kəndi | Subay |
| 8. | Dəmirli Elşən Gündüz oğlu | 15.10.1998 | Gizir | Nic qəsəbəsi | Subay |
| 9. | Mikayıllı Mikayıl Mixvər oğlu | 24.09.1993 | Gizir | Mıxlıqovaq kəndi | Subay |
| 10. | Qədirzadə Akşin Elman oğlu | 10.03.1999 | MAXE əsgər | Seyidqışlaq kəndi | Subay |
| 11. | Qurbanov İsmayıl Yaşar oğlu | 06.03.2001 | Əsgər | Böyük Pirəli kəndi | Subay |
| 12. | Əbdurəhmanov Elvin Əbülfəz oğlu | 01.10.1996 | Əsgər | Əmirvan kəndi | Subay |
| 13. | Əmiraslanov Ümman Namiq oğlu | 21.12.1996 | Əsgər | Mıxlıqovaq kəndi | Subay |
| 14. | Kərimov İsmayıl Abbas oğlu | 03.11.1990 | Əsgər | Tüntül kəndi | Evli |
| 15. | Süleymanov Vasif Akif oğlu | 24.02.2002 | Əsgər | Bum qəsəbəsi | Subay |
| 16. | Cəlilov Tural Cəllad oğlu | 10.04.1996 | Əsgər | Yeni Dızaxlı kəndi | Subay |
| 17. | Şirinov Taleh Qadir oğlu | 21.10.1996 | Əsgər | Çuxur Qəbələ | Evli |
| 18. | Yusifov İmaməddin Niyaməddin oğlu | 22.07.2002 | Əsgər | Mıxlıqovaq kəndi | Subay |
| 19. | Mustafayev Elməddin Məhəmməd oğlu | 01.05.2001 | Əsgər | Qəbələ şəhəri | Subay |
| 20. | Eyyubov Sərvan Yusif oğlu | 02.11.1998 | Əsgər | Böyük Pirəli kəndi | Evli |
| 21. | Atakişiyev Rüstəm Zahid oğlu | 24.12.2000 | Əsgər | Tüntül kəndi | Subay |
| 22. | Səfərçinov Xeyirbəy Cəlil oğlu | 05.10.1993 | Əsgər | Yeni Dızaxlı kəndi | Subay |
| 23. | Bayramov Coşqun Ənvər oğlu | 25.05.1991 | Əsgər | Kiçik Əmili kəndi | Evli |
| 24. | Bayramov Aydın Mətləb oğlu | 02.08.1997 | Əsgər | Əmirvan kəndi | Subay |
| 25. | Ağayev Tapdıq Çingiz oğlu | 02.12.1990 | Əsgər | Tüntül kəndi | Evli |
| 26. | Mikayılov Şöhrət İkram oğlu | 26.02.2002 | Əsgər | Zərgərli kəndi | Subay |
| 27. | Əhmədov Mikayıl Hümmət oğlu | 24.07.1993 | Əsgər | Savalan kəndi | Subay |
| 28. | Səmədli Vüqar Vaqif oğlu | 23.02.1992 | Əsgər | Yengicə kəndi | Subay |
| 29. | Nəsrullayev Rəşid Qəzənfər oğlu | 11.07.1993 | Əsgər | Nic qəsəbəsi | Subay |
| 30. | Qasımov Təbriz Ramiz oğlu | 16.02.1993 | Əsgər | Qəbələ şəhəri | Evli |
| 31. | Rəhimov Fariz Zahir oğlu | 20.09. 2001 | Əsgər | Əmirvan kəndi | Subay |
| 32. | Heydərov Adəm İkram oğlu | 26.03.2000 | Əsgər | Bum qəsəbəsi | Subay |
| 33. | Zeynalov Əsəd Ərzuman oğlu | 12.08.1999 | Əsgər | Seyidqışlaq kəndi | Subay |
| 34. | Babayev Ağaşirin Firuz oğlu | 10.05.2001 | Əsgər | Qəmərvan kəndi | Subay |
| 35. | Üzeyrov Qoşqar Müşviq oğlu | 26.01.2002 | Əsgər | Soltannuxa kəndi | Subay |
| 36. | İdrisov Ruslan Qabil oğlu | 06.06.2002 | Əsgər | Qəmərvan kəndi | Subay |
| 37. | Musazadə Azər Çingiz oğlu | 25.06.1998 | Əsgər | Şəfili kəndi | Subay |
| 38. | Rəhimov Elnur Məmmədkərim oğlu | 25.07.2000 | Əsgər | Mıxlıqovaq kəndi | Subay |

## Muğanlı – İsmayıllı – Qəbələ yolu

Yollar iqtisadiyyatın inkişafına, insanların rahatlığına xidmət edir. Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının icrası sayəsində son illərdə ölkədə bir sıra respublika və yerli əhəmiyyətli avtomobil yolları, körpülər, yolötürücüləri tikilib, yaxud təmir edilib. Yol rahatdırsa, insanlar da rahat olur və gediş-gəliş zamanı əziyyət çəkmirlər.

Mürəkkəb relyef şəraitində, aktiv seysmik zonada yerləşən, atmosfer sularının təsirindən sürüşməyə meyilli dağ yamaclarından keçən Muğanlı - İsmayıllı - Qəbələ yolu yenidən qurulur. Yenidənqurma nəticəsində yol 9,7 km qısalaraq 76,8 km təşkil edəcək. Mövcud ikizolaqlı yol genişlənərək dörd hərəkət zolağından ibarət olacaq. Yeni layihə boyu 1 tunel, 8 böyük və 5 kiçik körpü də nəzərdə tutulub. Yenidənqurulan yolun 4,5 km-liyində Ağsu çayla və çay vadisi ilə kəsişmədə 1135 m uzunluqda və 76,5 m hündürlükdə böyük Asma körpü salınacaq. Yol Ağsu çayı üzərindəki körpüdən sonra gələn hündür dağdan uzunluğu 865 m olan tunellə keçəcək. Basqal kəndi yaxınlığında trasın düzləşdirilməsi hesabına isə yol 2,2 km qısalır. Digər hissələrdə layihələndirilən yol Qəbələ şəhərinədək mövcud ox ilə davam edir. Yolun bir hissəsi Qəbələ şəhərinə daxil olmadan soldan Dəmiraparan çay vadisindən keçərək şəhərin çıxışında mövcud yolla birləşəcək. Bunun hesabına yol bu hissədə 5 km qısalır. AAYDA-nın şöbə müdiri Anar Nəcəflinin sözlərinə görə layihənin tam icrası sözügedən avtomobil yolunda hərəkət şiddəti, yolun yükgötürmə qabiliyyətini yaxşılaşdıracaq, yol-nəqliyyat hadisələrini, səyahət müddətini və nəqliyyat xərclərini azaldacaq. İqtisadi artımı sürətləndirəcək və qonşu ölkələrlə ticarət münasibətlərinin inkişafına təkan verəcək, həmçinin sürücülər və yerli əhali üçün yol hərəkətinin təhlükəsizliyini təmin edəcək. Yolun keçdiyi ərazilərdə iqtisadi potensial daha da genişlənəcək və təbii ki, bu halda regionda kənd təsərrüfatı və turizm daha da inkişaf edəcəkdir. Onu da qeyd edək ki, ölkənin mühüm turizm bölgələrinə gedən və Prezident İlham Əliyevin tapşırığına əsasən yenidən qurulan Muğanlı-İsmayıllı-Qəbələ yolu ilk dəfə keçən əsrin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə salınıb.

**«Qəbələ»**

# Ocaq oldum, ocaq daşı olmadım...

**Oğul toyu həsrəti**

Mən Cəlil Səfərçinovu gənc yazar, zəhmətkeş insan, torpağına, elinə bağlı bir vətənpərvər, dağ havası ilə böyümüş, qəlbi bu dağların, bu təbiətin gözəllikləri ilə köklənmiş bir insan kimi tanıyırdım. Yaşadığı həyatı poetik düşüncələrlə qələmə alan Cəlil Komradlı kimi imza qazandı. Sonralar yaşadığı obanın və ətraf kəndlərin, rayon məclislərinin aparıcı-təqdimatçısı, sinədəftəri oldu. Biricik oğlu Xeyirbəy isə bu məclisləri tarixi yaddaşlarda yaşadan operator idi...

İki övladı var idi Cəlilin. Qızı ailə qurmuşdu. İllərlə baba adının həsrətində olsa da, 11 ildən sonra bu arzunun işığıyla özünü çox xoşbəxt sanırdı. Poetik düşüncələrinin əsas mövzusuna çevrilmişdi nəvə məhəbbəti, baba sevgisi... Həsrəti isə oğul toyu idi... Və bu arzusunun lap kandarında idi... Min bir həsrətlə axır ki ona otaq hazırlamışdılar; ömür gün yoldaşı Gülayət xanımla. Estetikası tamamlanmış, pərdəsi də taxılmışdı. Ev onun bəy otağı idi; Hər dəfə ata da, ana da, ata evinə qonaq gələn tək bacısı Gülşən də otağın hər qarışını oxşayaraq qapısını açar, Xeyirbəyin otağının düzənini, havasını belə toxunulmaz, ən qiymətli varidat kimi əzizləyərdilər.

**Xeyirxah xarakterli Xeyirbəy**

Kənd sakinləri onun haqqında o qədər xoş danışırdılar ki... Həyatı maraqlı, xoş xatirələrlə dolu idi. Kəndin cavanından yaşlısına hər kəs Xeyirbəyi saf qəlbli, xeyirxah, elinə, obasına bağlı bir gənc kimi tanıyırdılar. O, təkcə insanlara qarşı deyil, təbiətin bütün yaratdıqlarına humanistcəsinə yanaşar, xeyirxah əməllərilə tanınardı. Yaralı quş görsə yaralarını sarıyar, heyvan olsa ona nəvaziş göstərər, bitki və ağaclara belə qayğı ilə yanaşardı. İnsanların kədəri ilə yaşayar, sevinci ilə fərəhlənərdi. Bəlkə bu xarakter poetik qəlbli atasının gerçək dünyasının simvolu idi, bəlkə də, onun düşüncələrinin bəhrəsi idi. Hər sənəti öyrənərdi, halal çörək qazanmağın yollarını yaşadığı kəndin əhatəsindənmi, yoxsa atasının həyat hekayəsindənmi öyrənmişdi, bilmirəm. Ancaq onu öyrəndim ki, öz bahar ömrü ilə yaşadığı obada özünəməxsus hörmət qazanmışdı. Bu, iki dəfə kəndə yol aldığım avtobusdakı sərnişinlərin, eləcə də, kənd adamlarının söhbətlərində, həyəcanlı danışıqlarında hiss olunurdu...



**Öz diqtəmin bayrağında qul oldum,**
**Vətən göyü göylüyündə duruldum.**
***(M. Araz).***

Xeyirbəy 1993-cü il təvəllüdlüdür. Ailənin ikinci övladıdır. Orta məktəbi bitirdikdən sonra Qəbələ rayon peşə məktəbində təhsilini davam etdirmişdir. Xeyirbəy vətənpərvər bir gənc idi. Oxuduğu kitablar, atasının şeirləri, ailəsinin zəhməti bahasına halallıqla yaşaması onu milli-mənəvi dəyərlərin, vətən və insan məfhumunun anlamının zənginliyində bərkitmiş, hər peşəyə, hər işə əl atması - gah usta, gah təsərrüfatçı, gah operator işləməsi, xalq, camaat içində olması onu mükəmməl gənc kimi tanıtmışdı.

2011-2013-cü illərdə Daşkəsəndə hərbi xidmətdə olmuşdu. Bu dövrdə də nümunəvi xidmətinə görə ailə həmişə onunla fəxr etmişdi. Xeyirbəy əsgərlik həyatından həmişə ağızdolusu danışarmış. Hərbi xidmət illəri onun həyatında iradə, əqidə, vətəndaşlıq adının aliliyini daha da möhkəmlətmişdi. Axı general-mayor, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimov o illərdə onun korpus komandiri olmuşdu!

II Vətən Müharibəsinin labüdlüyünü Xeyirbəy də düşünərdi. 2020-ci il sentyabrın 21-də o, hərbi səfərbərliklə əlaqədar çağırışçı gənclərdən biri kimi təlimlərdə iştirak etmək üçün Tərtərə yola düşdü. Sentyabrın 27-də komandirinin intiqamını almaq, qalib ölkənin vətəndaşı olmaq amalı ilə torpaqlarımızın işğaldan təmizlənməsində mərdliklə döyüşlərə qatıldı. Ürəyinin diqtəsi ilə döyüşürdü, hər döyüşə girəndə, döyüşlərdə olduğu hər anda I Vətən Müharibəsi şəhidlərinin, igid komandirinin, gözləri önündə itirdiyi döyüşçü dostlarının intiqam hissi ilə yaşayır, döyüşürdü.

Son dəfə Madagizdə-Ağdərə istiqamətində gedən döyüşlərdə olmuşdu. Oktyabrın 22-də şəhadətə qovuşmuşdu. Ruhu intiqam hissi ilə yorğunluğundan azad olaraq göylərə çəkilmişdi...

**Bayrağa bükülmüş maşın**

***Üç rəngli bayrağı öz qanlarıyla***
***Vətən torpağına çəkdi şəhidlər!***
**B. Vahabzadə.**

O maşını qarşılamaq çox çətindir. Nə qədər qürurlu, fəxrli sayılsa da, çox ağırdır...

Oktyabrın 24-də gəldi o maşın... Nə atanın, nə ananın, bacının yaşamaq-ayaqüstə durmağa gücü vardı... Perikperik oldu arzuları...

Cəlili də, Gülayəti də görmək istəmişdim... Bəlkə yaraları bir az qaysaqlasın, sonra görüşərəm deyə ləngidim. Ancaq övlad yarası qaysaqlanmaz ki... Birinci dəfə görüşə bilmədim, narahat olmuşdular, sakitləşdirici iynə vurulmuşdu...

İkinci dəfə ailə ilə görüşməyə gedəndə tanıya bilmədim Cəlili... Qəm ilə köklənmiş saza bənzəyirdi...

Xeyirbəyin bəy otağı bayraqlar, xatirə şəkilləri ilə bəzədilmişdi. Hər gün Gülşən bu otağın ağrı-acısını "dada-dada" bu xatirələrlə danışır qəlbində, atasına da, anasına da dözüm "dirəyi" olmaq üçün onlardan ayrılmır...

Xeyirbəy Polad əqidəli, Polad kimi qorxmaz bir gənc idi. O, təkcə öz ailəsinin deyil, bu kəndin, bu rayonun, bu ölkənin övladı oldu. Ölməzliyi ilə əbədiyyətə qovuşdu... insan var ki, 100 ildən çox yaşar, adı bir insan kimi anılmaz, insan var ki, ömrünün bahar dönəmində həyatına son qoyulsa belə cismən köçər dünyadan; nəsilbənəsil yaşayar. Məhz Mehdilər, Həzilər, Mübarizlər, Poladlar kimi öz bahar ömrü ilə zəfər tarixi yazan şəhidim, hər kəsin qəlbində əbədi yaşayırsan, yaşayacaqsan.

Xeyirbəy Səfərçinov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**BİBİXANIM.**